**SƏİDƏ ABBASOVA**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**
**BDU**
**Zahid Xəlil kuc**
**saida200@mail.ru**

# ALI MƏKTƏBLƏRDƏ AZƏRBAYCAN DİLİ NİTQ MƏDƏNİYYƏTİ FƏNNİNİN TƏDRİSİ

*Dil xalqın böyük sərvətidir.*
*Ədəbi dilin tərəqqisi olmadan*
*mənəvi mədəniyyətin tərəqqisi*
*mümükün deyil.*

**Heydər Əliyev**

Xülasə

Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi onun suverenliyi üçün əsas şərtlərdən biridir. Azərbaycan dilinin tətbiqi, onun qorunması və inkişafı qayğısına qalmaq dövlətin əsas vəzifələrindən biri olmuşdur. Dil haqqında bir-birinin ardınca imzalanan fərman və sərəncamlar Azərbaycan dilinin cəmiyyətimizin bütün sferalarında öz layiqli yerini tutmasına əsas yaradır.

Ali təhsil pilləsinin dövlət standartları və proqram qəbul edildikdən sonra dil siyasəti sahəsində daha uğurlu addımlar atıldı.

Bu proqrama uygun olaraq Ali məktəblərdə “Azərbaycan dili və nitq mədəniyyəti” fənninin tədris olunması da belə uğurlu addımlardandır.

Fənnin tədrisində məqsəd Azərbaycan dilini mükəmməl bilməklə yanaşı, bu dildə öz fikrini düzgün, dəqiq, səlis (həm yazılı, həm də şifahi formada) sərbəst ifadə etməyi bacaran, yüksək nitq mədəniyyətinə malik gənclər yetişdirmək olmuşdur.

Bu günün və sabahın dil daşıyıcısı o dildə düzgün, ifadəli danışmağı bacarmalı, qarşısındakı dinləyicini (istər dost olsun, istər düşmən) sözünün gücü ilə heyrətləndirməlidir.

Nitq mədəniyyəti problemlərinin gündəmdə olması, heç də təsadüfi səciyyə daşımayıb, dövrün, zamanın tələbi kimi meydana çıxmışdır.

“Azərbaycan dili və nitq mədəniyyəti” fənni ixtisasından asılı olmadan bütün fakültələrdə təhsil alan tələbələrin Azərbaycan dilinə mükəmməl yiyələnməsi və ondan nitq praktikasında istifadə məqsədi daşıdığı üçün mühüm tədrisi əhəmiyyətə malikdir. Bu fənn dilimizin gözəl, ahəngdar, heç vaxt öz təravətini itirməyən xüsusiyyətlərə malik olduğunu açıb göstərir, digər tərəfdən həmin dildən istifadə yolu ilə gələcəyin savadlı, yüksək nitq mədəniyyətinə malik kadrların yetişməsində əvəzsiz rol oynayır.

Dildən səmərəli istifadə etmək, dilimizi yad ünsürlərdən qorumaq, dilin potensial gücündən maksimum dərəcədə yararlanmaq hamımızın borcudur.

İndiki dövrdə cəmiyyətin əksər üzvləri savad və biliyə malikdir. Belə bir dövrdə özünü təsdiq və özünü ifadə üçün nitq vərdişlərinə yiyələnmək günün tələbidir.

Ümummilli liderimiz H.Əliyevin böyük uzaqgörənliklə söylədiyi sözlər bu gün də aktuallığını qoruyub saxlayır: “Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyil”.

***Açar sözlər:*** nitq mədəniyyəti, Azərbaycan dili, xalq, natiqlik, ünsiyyət, qrammatika, Dövlət dili, dil siyasəti.

Dil cəmiyyətin varlığı, onun təşəkkülü və inkişafı üçün çox zəruri bir vasitədir. Cəmiyyətdə dilin başlıça rolu onun əsas ünsiyyət vasitəsi olmasıdır. Dili yaradan xalqdır. Hər bir xalq ünsiyyət üçün öz dilini yaratdıqdan sonra onu qoruyub inkişaf etdirir.

Dünyada baş verən ciddi ictimai-siyasi, mənəvi-əxlaqi dəyişmələr, elmi-texniki tərəqqi, xalqların bir-biri ilə ünsiyyət və əlaqələrinin genişlənməsi, cəmiyyətin bütün sahələrində inteqrasiyaya meyil və s. dilin insan həyatında əvəzsiz rolunu bir daha ortalığa atır. Dil xalqın milli varlığını müəyyən edən dövlət atributlarından biri sayılır, təmənnasız olaraq bütün xalqa xidmət edir (1, 3-4).

Dilin nitqdən fərqli cəhəti onun tarixən dəyişməsi, öz fonetik tərkibini, leksik tutumunu və qrammatik quruluşunu saxlamasıdır.

Azərbaycan dili də ümumxalq və millətlərarası ünsiyyət funksiyasını uğurla yerinə yetirməkdədir.

Mükəmməl quruluşa, zəngin söz ehtiyatına malik Azərbaycan dili inkişaf etmiş dillərdən biridir və onun vasitəsilə istənilən fikri ifadə etmək mümkündür. Hər bir fərdin şəxsiyyət kimi formalaşmasında dil amili başlıca rol oynayır. Şəxsiyyətin özünü ifadəsində isə dilə hansı səviyyədə yiyələnməsi vacib şərt sayılır və düşüncələrin ədəbi dil normalarına uyğun verilməsinə geniş imkanlar açır. Deməli, nitq həm də insanın daxili aləminin göstəricisidir.

Ulu öndər H.Ə.Əliyev Dünya Azərbaycanlılarının I Qurultayındakı (10 noyabr 2001-ci il) çıxışında demişdir: "Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik. Hansı qitədə, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı dilini yaşatmalı və inkişaf etdirməlidir".

Konstitusiyamızda Dövlət dili kimi təsbit olunan Azərbaycan dilinin qorunması, öyrənilməsi, cəmiyyətin bütün sferalarında öz layiqli yerini tutması hökümətimizin daim diqqət mərkəzindədir (2, 156).

H.Əliyev irsinin layiqli davamçısı olan Prezidentimiz İ.Əliyevin dilin inkişafı və tətbiqi ilə bağlı imzaladığı fərman və sərəncamlar dil məsələsinin çox ciddi bir məsələ olduğunu göstərir. Xalqların öz ana dilinə, onun müstəqilliyinə hörmət və qayğısının artdığı müasir dünyanın nəbzini tutan cənab prezidentin 2012-ci il 23 may tarixində imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair" sərəncamında Xalqımızın milli qürur mənbəyi və dövlət atributlarından sayılan ana dilimizin bugününə və sabahkı inkişafına böyük qayğı və məhəbbət hissi ifadə edilir.

Azərbaycan dilinin tədqiqi və öyrənilməsi, onun orta və ali məktəblərdə tədrisi ilə yanaşı, praktik olaraq tətbiqi, hər bir azərbaycanlının bu dildən maksimum yararlanması, onun gündəlik həyatın ayrılmaz hissəsinə çevrilməsi gündəmdə duran məsələlərdəndir. (3, 95). Bu günün və sabahın dil daşıyıcısı o dildə düzgün, ifadəli danışmağı bacarmalı, qarşısındakı dinləyicini sözünün gücü ilə heyrətləndirməlidir.

Ali təhsil pilləsinin dövlət standartları və proqramı qəbul edildikdən sonra dil siyasəti sahəsində daha bir uğurlu addım atıldı. Azərbaycan dilinin inkişafına dair Dövlət Proqramı imzalandı. Bu proqramda Ali təhsil müəssisələrində nitq mədəniyyəti fənninin tədris edilməsinin təmin edilməsi Təhsil Nazirliyinə həvalə olundu.

Məqsəd Azərbaycan dilini mükəmməl bilməklə yanaşı, bu dildə öz fikrini düzgün, dəqiq, səlis və həm yazılı, həm şifahi formada sərbəst ifadə etməyi bacaran, yüksək nitq mədəniyyətinə malik gənclər yetişdirmək olmuşdur.

Təhsil Nazirliyinin 2014-cü il 22 avqust tarixində təsdiq etdiyi ali təhsil pilləsinin dövlət standartlarının bakalavr səviyyəsinin ixtisas proqramına uyğun olaraq bütün Ali məktəblərin Azərbaycan, rus, ingilis bölmələrində "Azərbaycan dili və nitq mədəniyyəti" fənninin tədris edilməsi qərara alındı. (4, 331).

Fənn Azərbaycan dilinin fonetik, leksik və qrammatik normalarını və funksional üslublarını mənimsətməklə yüksək nitq mədəniyyətinə yiyələnməni təmin edir.

Nitq mədəniyyəti problemlərinin gündəmdə olması heç də təsadüfi səciyyə daşımayıb, dövrün, zamanın tələbi kimi meydana çıxmışdır. Ənənəvi təhsil, dil mədəniyyətinə yiyələnməni təmin etmiş, lakin nitq mədəniyyəti kölgədə qalmışdır. Xalqın ümumi mədəniyyətinin tərkib hissəsi olan dil fərdi xarakterə malik olan nitqdən ciddi şəkildə fərqlənir. Dilin fonetikasına, leksikasına, qrammatikasına bələd olmaq olar, amma bu nitq mədəniyyətinə yiyələnməni tam təmin edə bilməz.

"Azərbaycan dili və nitq mədəniyyəti" fənninin tədrisi tələbələrin yazılı və şifahi nitqini inkişaf etdirmək, onlarda düzgün, aydın, zəngin və səlis danışıq qabiliyyəti, eləcə də öz duyğu və düşüncələrini, arzu və fantaziyalarını dilimizin qaydalarına uyğun yazılı formada ifadə etmək bacarıqlarını formalaşdıraraq, tələbələrin bədii ədəbiyyat nümunələrini – şeir, nəsr və dram parçalarını əzbərləyərək rəvan ifa etmələrinə də kömək edir. Onlar auditoriya qarşısında çıxış etməklə bərabər məruzələr və referatlar hazırlayır, müxtəlif yazılar yazmaqla düzgün nitqə yiyələnirlər.

Dərs zamanı tələbələrə fənn və nitq mədəniyyəti haqqında anlayışlar təqdim olunur, fənnin məqsəd və vəzifələri açıqlanır, Azərbaycan ədəbi dili və ona olan dövlət qayğısından danışılır, nitqin növləri, yazılı və şifahi nitqin fərqli cəhətləri göstərilir.

Həmçinin nitq mədəniyyəti və natiqlik sənətinin tarixi haqqında məlumat verilir, nitq mədəniyyəti və nitqə verilən tələblər qeyd olunur, nitq mədəniyyətinin əlaqədar olduğu digər elm sahələrindən danışılır.

Nitqin formaları və janrları, o cümlədən monoloji nitq (intonasiya, nəqletmə, təsvir) və dioloji nitq (deyişmə, sual-cavab) formaları haqqında bəhslər Azərbaycan dilində nitq formalarının zənginliyini, dilimizin cəmiyyətin bütün sahələrində şəriksiz ünsiyyət vasitəsi kimi işləndiyini vurğulayır.

Adi məişət ünsiyyətindən tutmuş, akademik nitqə qədər danışanın (yazanın) savad dərcəsindən asılı olaraq dilimiz nitq fəaliyyəti funksiyasına uğurla xidmət edir.

Nitq mədəniyyətinin əsas şərtlərindən hesab edilən nitqin düzgünlüyü ədəbi dil normalar sistemi ilə sıx bağlıdır. Bu mövzuları əhatə edən dərslərdə ədəbi dil və onun fonetik normaları, fonetik vasitələrin - fonemlər sistemi, vurğu, intonasiya və s-nin nitqin qurulmasında rolundan danışılır. Şifahi nitq normaları, ədəbi tələffüz və onun komponentləri, yazılı nitq normalarının mənimsədilməsinin tələbələrin şifahi və yazılı ünsiyyətinə imkan yaradacağı vurğulanır.

Düzgün və gözəl nitqin başlıca xüsusiyyətlərindən biri də danışıq üçün lazım olan söz və ifadələrin yerli yerində işlədilməsidir. (5, 196).Leksik-semantik normaları öyrənmədən dilimizin çoxmənalılığına, omonim, sinonim və antonimliyinə, sözün işlənmə dərəcəsinə, frazeoloji birləşmələrdən düzgün istifadəyə nail olmaq, canlı ünsiyyət qurmaq olmaz.

Fikri səlis və dinləyicinin başa düşə biləcəyi dildə ifadə dilin sinonimikasından istifadə ilə bağlıdır. Əgər belə olmasa nitq çox cansıxıcı və yorucu olur.

Qrammatik normaların da mənimsədilməsi nitq vərdişlərinin yaradılmasında əsas rola malikdir.

Nitq əsasən cümlə ilə reallaşdığına görə dilin morfologiyası və sintaktik quruluşu fikrin ifadəsi üçün əsas vasitə hesab olunur. Nitq mədəniyyəti dərslərində morfoloji və sintaktik normalar, sözün tərkibi, söz birləşmələri, cümlə üzvləri, cümlənin qururluşca növlərin nitq normalarına uyğunluğu haqqında mövzuların keçirilməsi məhz bu məqsədə xidmət edir (10, 312).

Dərslərdə önəm verilən məsələlərdən biri də nitqin funksional üslubları və üslubi normalarıdır. Bu dərslərdə bədii, elmi, publisistik, rəsmi-işgüzar üslublar, məişət üslubu və epistolyar üslub haqqında məlumat verilir.

Respublikamız müstəqillik əldə etdikdən sonra elmi-texniki və ictimai-siyasi əlaqələrin güclənməsi nəticəsində müxtəlif elm sahələri üzrə terminoloji baza xeyli qüvvətlənmişdir və təbii ki, dilimizə müxtəlif terminlər daxil olmuşdur (6,129). Tələbələr ayrı-ayrı elm sahələrində işlədilən xarakterik terminlərin öyrədilməsi, universitetin müxtəlif fakültələrində təhsil alan

gənclərin öz ixtisaslarını daha dərindən mənimsəməsinə, bu terminlərdən şifahi və yazılı nitqlərində istifadəsinə xidmət edir.

Hər bir elm sahəsinə məxsus terminologiyanın əksi elmi təfəkkürün göstəricisidir və xalqın tərəqqisini əks etdirir. Qloballaşma dövründə beynəlxalq arenada istifadə olunan söz və ifadələrdən də nitqdə geniş istifadə olunur. Lakin bu zaman əsas diqqət ana dilinin saflığının qorunmasına yönəldilməlidir.

Azərbaycan natiqlik sənətinin tarixi baxımından araşdırılması göstərir ki, Azərbaycan dilini yaxşı bilən, dilimizin linqvistik xüssiyyətlərini, onun məna incəliklərini mənimsəmiş şəxslər auditoriya qarşısında yüzlərcə adamı cəlb edən nitqlər söyləyə bilmişlər. Buna ən yaxşı nümunə kimi Ümummilli liderimiz H.Ə.Əliyevin kütlə qarşısında xalqın anlaya biləcəyi tərzdə düzgün, dəqiq və səlis çıxışlarını misal gətirmək olar. Onun nitqlərinin əsas gücü Azərbaycan dilini yaxşı bilməsində idi. Deməli, dili yaxşı öyrənmədən yüksək mədəni nitqə sahib olmaq olmaz. Nitqin düzgünlüyü, dəqiqliyi, təmizliyi, aydınlığı, ifadəliliyi, məntiqiliyi o dilin normalarına yiyələnməklə bağlıdır.

Azərbaycan dili və nitq mədəniyyəti fənni ixtisasından asılı olmadan bütün fakültələrdə təhsil alan tələbələrin Azərbaycan dilinə mükəmməl yiyələnməsi və ondan istifadə məqsədi daşıdığı üçün mühüm tədrisi əhəmiyyətə malikdir (7, 310). Bu fənn bir tərəfdən dilimizin gözəl, ahəngdar, heç vaxt öz təravətini itirməyən xüsusiyyətlərə malik olduğunu açıb göstərir, digər tərəfdən həmin dildən istifadə yolu ilə gələcəyin savadlı, yüksək nitq mədəniyyətinə malik kadrların yetişməsində əvəzsiz rol oynayır. Cəmiyyətin əksər üzvlərinin savad və biliyə malik olduğu indiki dövrdə özünütəsdiq, özünü ifadə üçün nitq vərdişlərinə yiyələnmək günün tələbidir. Dildən səmərəli istifadə etmək, dilimizi yad ünsürlərdən qorumaq, dilin potensial gücündən maksimum dərəcədə yararlanmaq hamımızın borcudur. Hələ ötən əsrdə Ümummilli liderimiz Heydər Əliyevin böyük uzaqgörənliklə söylədiyi bu sözlər indi də aktuallığını qoruyub saxlayır: “Dil xalqın böyük sərvətidir (8, 49).Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir....“. Biz tam inamla deyə bilərik ki, çoxəsrlik tariximizdə Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır".

## Ədəbiyyat siyahısı

**1.** Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair "Dövlət Proqramı". Azərbaycan qəzeti 11 aprel 2013. səh.3-4

2. Abbasova S.V. Seyidova S., Məmmədova N., Cavadov Ə. "Azərbaycan dili və nitq mədəniyyəti". Dərslik. Elm və Təhsil. Bakı. 2017. 231 səh.

3. Abdullayeva N.Ə. "Nitq mədəniyyətinin əsasları". Bakı. Elm və təhsil. 2013. 288 səh.

4. Babayev A. "Azərbaycan dili və nitq mədəniyyəti". Bakı. Təhsil. 2008. 621 səh.

5. Dəmirçizadə Ə.M. "Müasir Azərbaycan dili". Bakı. Şərq-Qərb. 2007. 256 səh.

6. Hacıyeva İ.H. "Nitq mədəniyyəti". Bakı. Politexnik MMC. 2014. 242 səh.

7. Qurbanova A. "Müasir Azərbaycan ədəbi dili". Bakı. "Nurlan" 2003. 406 səh.

8. Xudiyev N. "Heydər Əliyev və Azərbaycan dili". Bakı.1997.

9. Yusifov N. "Nitq mədəniyyətinin əsasları". Bakı. 1988.

10. Şiriyev F. "Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika". Bakı. "Nurlar". 2014. 400 səh.

С.Аббасова

**Преподавание в высших учебных заведениях дисциплины «Азербайджанский язык и культура речи»**

**Резюме**

Одним из условий суверенитета Азербайджанской Республики является признание азербайджанского языка государственным языком. Пропаганда азербайджанского языка, забота о его сохранении и развитии является одной из приоритетных задач государства. Последовательно принятые указы о языке создают почву для того, чтобы азербайджанский язык занял свое своего достойное место во всех сферах нашего общества.

После принятия программы и государственных стандартов ступеней высшего образования были достигнуты успехи в сфере языковой политики.

Преподавание дисциплины «Азербайджанский язык и культура речи» в высших учебных заведениях согласно этой программе является одним из важных шагов в этой области.

Целью преподавания данной дисциплины, наряду с привитием совершенных знаний азербайджанского языка, является подготовка молодежи, способной верно, четко и точно выражать свои мысли (как в устной, так и в письменной форме) и обладающей высокой степенью культуры речи.

Носители языка и сегодня, и завтра должны уметь правильно выражать свои мысли и восторгать слушателя (будь он друг или враг) силой слова.

Злободневность проблемы культуры речи не носит случайный характер, а отвечает требованиям времени.

Дисциплина «Азербайджанский язык и культура речи» целенаправлена на совершенное освоение студентами всех факультетов вузов вне зависимости от специальности и использование его в языковой практике, которое придает ему особую просветительскую значимость. Эта дисциплина выявляет богатство, яркость, никогда неувядающую красоту нашего языка и играет важную роль в подготовке кадров, обладающих высокой культурой языка.

***Ключевые слова:*** культура речи, Азербайджанский язык, народ, ораторства, общение, грамматика, государственный язык, языковая политика.

S.Abbasova

**Studying the subject “Azerbaijan language and speech culture” at higher schools**
**Summary**

Using Azerbaijan language as official language of Azerbaijan Republic is one of the main demands for its sovereignty. The saving, improvement of Azerbaijan language had been one of main duties in the country. Signed disposals and decrees proves that Azerbaijan language plays an important role and have deserved place in all spheres of our society.

After accepting programs of state standards in higher schools took successful steps in language policy field. The studying “Azerbaijan language and speech culture” is such effective steps.

The main purpose of studying this subject is not only learning Azerbaijan language fluently, but also growing the youth who should express opinions correctly, accurately, fluently with the help of this subject.

Today's and tomorrow's speaker should speak correctly, and punctual in his native language and surprise his audience with his power of word.

Being speech problems so actual is not coincidence; it has been come out with different requirements.

"Azerbaijan language and speech culture" as a subject is taken necessary for any students who are studying in any profession whatever they do, for getting fluent Azerbaijan language. This subject displays that how beautiful, harmonious character our language has. On the other side it plays an important role in growing well-educated, high-quality speaker with using this language.

Using language valuably, saving it from external effect, getting potential language of language as much as you can is everyone's responsibility.

At the modern time major part of society is well-educated. In this period having verbal communication in high-quality is today's requirement in terms of self-expression.

Commonwealth Leader Heydar Aliev's genius words still save their actuality: "Language is people's wealth and spiritual values. If language progress is not existed, mental culture progress will not be existed."

***Key words:*** speech culture theme, Azerbaijani language, nation, expression, communictation, grammer, official language, language politicy.

Redaksiyaya daxil olma tarixi: 12.05.2019
Çapa qəbul olunma tarixi: 01.06.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Sultan Seyidova tərəfindən çapa tövsiyə olunmuşdur.